

*Əl işdən soyumaz, ürək arzudan...*

# QƏBƏLƏ

Qəbələ rayonunun ictimai-siyasi qəzeti

*1933-cü ildən nəşr olunur*

№ 52-53 (7101-7102) ☼ Cümə axşamı, 11 iyul 2013-cü il ☼ Qəzet ayda 4 dəfə çıxır ☼ Qiyməti 40 qəpik


## PREZİDENTİN İŞ GÜNDƏLİYİNDƏN

Azərbaycan Prezidenti İlham Əliyev ABŞ Senatoru, Silahlı Qüvvələr üzrə Komitənin üzvünün başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasında ikitərəfli münasibətlərin müxtəlif sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış, əməkdaşlığımızın genişləndirilməsində müxtəlif səviyyəli qarşılıqlı səfərlərin önəmi qeyd olunmuşdur.

☼ ☼ ☼

Dövlətimizin başçısı İlham Əliyev Tovuz, Qazax və Ağstafa rayonlarına səfər etmişdir.

Prezident həmin bölgələrdə tikilib istifadəyə verilmiş bir sıra obyektlərin açılış mərasimlərində iştirak etmişdir.

☼ ☼ ☼

Azərbaycan Prezidenti İlham Əliyev Xorvatiya Parlamenti sədrinin başçılıq etdiyi nümayəndə heyəti ilə görüşmüşdür.

Görüşdə ölkələrimiz arasında ikitərəfli münasibətlərin uğurla inkişaf etdiyi vurğulanmışdır.

☼ ☼ ☼

Dövlət başçısı İlham Əliyev Rusiya Federasiyasının «Rosneft» şirkətinin prezidentini qəbul etmişdir.

Görüşdə ölkələrimiz arasında neft-qaz sektorunda əməkdaşlığın yaxşı səviyyədə olduğu qeyd olunmuş, bu əlaqələrin daha da genişləndirilməsi üçün səyləri artırmağın önəmi diqqətə çatdırılmışdır.

☼ ☼ ☼

Prezident İlham Əliyev Əfqanıstanın daxili işlər naziri Qulam Mustafa Patangı qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə Əfqanıstan arasında ikitərəfli münasibətlərin yüksək səviyyədə olduğu bildirilmiş, ölkəmizin müxtəlif sahələrdə yaxşı əməkdaşlıq etdiyi vurğulanmışdır.

☼ ☼ ☼

Azərbaycan Prezidenti İlham Əliyev ATƏT-in fəaliyyətdə olan sədri, Ukraynanın xarici işlər nazirini qəbul etmişdir.

Görüşdə Azərbaycan ilə ATƏT arasında əməkdaşlığın gələcək inkişafı, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı danışıqlar prosesinin hazırki vəziyyəti və perspektivləri ətrafında fikir mübadiləsi aparılmışdır.

☼ ☼ ☼

Dövlətimizin başçısı İlham Əliyev Kolumbiya Respublikasının xarici işlər nazirinin başçılıq etdiyi nümayəndə heyətini qəbul etmişdir.

**Miri RƏHİMOV.**

# Prezident İlham Əliyev «İlin dövlət başçısı» seçilmişdir

## *Azərbaycan Prezidentinin bu ada namizədliyi dünyanın 50 universitetini təmsil edən gənclər arasında keçirilən səsvermədə layiq görülmüşdür*



Dialoq və Əməkdaşlıq Uğrunda İslam Konfransı Gənclər Forumunun (DƏ-İKGF) İstanbuldakı Beynəlxalq Katibliyindən AzərTAc-a verilən məlumata görə, dünyanın 40 ölkəsinin 50-dən artıq universitetini təmsil edən 170-dən çox gənc arasında canlı şəkildə və 10 minə yaxın tələbə arasında online keçirilən sorğuya əsasən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev İƏT coğrafiyasında "İlin dövlət başçısı" seçilmişdir.

Bu barədə qərar iyulun 6-da DƏ-İKGF və Malayziya Beynəlxalq İslam Universitetinin (MBİS) təşkilatçılığı ilə Kuala Lumpur şəhərində keçirilən 3-cü Beynəlxalq İslam Əməkdaşlıq Təşkilatı Modelinin Sammitinin bağlanış mərasimində elan edilmişdir.

"İlin dövlət başçısı" nominasiyasında iştirak etmiş və İƏT-in 57 üzv ölkəsi sırasından seçilmiş dövlət başçılarının namizədlikləri İslam irsinə göstərilən qayğı, İƏT ölkələri arasında həmrəyliyin möhkəmləndirilməsi, təşkilata üzv ölkələrin sosial-iqtisadi inkişafı və beynəlxalq mövqelərinin gücləndirilməsi sahəsində fəaliyyətləri kimi parametrlər üzrə qiymətləndirilmişdir. Azərbaycan Prezidenti İlham Əliyev bu nominasiyanın qalibi olmuşdur.

Tədbirin bağlanış mərasimində qərarı elan edən İƏT Modeli Sammitinin hazırlıq komitəsinin sədri və Malayziya Beynəlxalq İslam Universitetinin prorektoru professor Abdulaziz Berqut bildirmişdir ki, Prezident İlham Əliyev "İlin dövlət başçısı" seçilərkən Azərbaycan Prezidentinin rəhbərliyi altında əldə olunmuş nailiyyətlər, o cümlədən Azərbaycanın BMT Təhlükəsizlik Şurasına qeyri-daimi üzv seçilməsi və bu mövqedən İƏT ölkələrinin maraqlarının müdafiəsi, Fələstin dövlətinə yardım üzrə İslam Maliyyə Təhlükəsizliyi Şəbəkəsinin təsis konfransı və Qüds şəhərinin inkişafına yardım üzrə donor konfransına 2013-cü ilin iyununda Bakıda ev sahibliyinin edilməsi, bütövlükdə Azərbaycanın İƏT-in İslam həmrəyliyi istiqamətində fəaliyyətinə dəstəyi, həmçinin Cənubi Qafqazın ilk məscidi və İslam sivilizasiyasının incisi sayılan Şamaxı məscidinin bərpası təşəbbüsləri nəzərə alınmışdır.

Üçüncü Beynəlxalq İslam Əməkdaşlıq Təşkilatı Modelinin "İlin dövlət başçısı" mükafatının modelin nümayəndə heyətinin Azərbaycana səfəri zamanı Prezident İlham Əliyevə təqdim edilməsi nəzərdə tutulur.

**AzərTAc**

# Kənd təsərrüfatı məhsulları istehsalçılarının kənd təsərrüfatı texnikası ilə təminatına əlavə dəstək haqqında

## *Azərbaycan Respublikası Prezidentinin Sərəncamı*

Azərbaycan Respublikasında əhalinin ərzaq məhsulları ilə etibarlı təmin edilməsi, ərzaq məhsulları istehsalının artırılması, istehlakda idxaldan asılılığın azaldılması üçün aqrar sahəyə dövlət dəstəyinin bundan sonra da davam etdirilməsi öz aktuallığını saxlamaqdadır. İri taxılçılıq təsərrüfatlarının yaradılması, ehtiyatda olan torpaq sahələrinin dövriyyəyə cəlb edilməsi, eyni zamanda istismarda olan taxılyığan kombaynların əksəriyyətinin mənəvi və fiziki cəhətdən köhnəlməsi əlavə taxılyığan kombaynların alınmasını zəruri edir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Taxılçılıqla məşğul olan kənd təsərrüfatı məhsulları istehsalçılarının bu il taxılyığan kombaynlara ehtiyacını təmin etmək üçün 2013-cü ilin dövlət büdcəsində nəzərdə tutulmuş Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondundan "Aqrolizinq" Açıq Səhmdar Cəmiyyətinə 15,0 (on beş) milyon manat ayrılsın.

2. Azərbaycan Respublikasının Maliyyə Nazirliyi bu sərəncamın 1-ci hissəsində nəzərdə tutulan məbləğdə maliyyələşməni müəyyən olunmuş qaydada təmin etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti.**

*Bakı şəhəri, 4 iyul 2013-cü il.*